**UOT: 821.512.162**

**Tomiris BABANLI**
AMEA Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
**tomiris_babanly@hotmail.com**

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ BUZOVNA ƏDƏBİ MÜHİTİ VƏ BUZOVNALI ŞAİRLƏRİN MAARİFÇİLİK FƏALİYYƏTİ

**Açar sözlər:** Buzovna ədəbi mühiti, maarifpərvər, milli özünüdərk, tədris, mütərəqqi ideyalar

**Keywords:** Literary environment of Buzovna, enlightener, national selfconsciousness, education, progressive ideas

**Ключевые слова:** литературная среда Бузовны, просветитель, национальное самосознание, образование, прогрессивные идеи

**Giriş.** Cəmiyyətin tərəqqisində ən vacib amillərdən biri də elm və təhsildir. Qədim ənənələrə malik olan Azərbaycanda zaman-zaman müxtəlif elm sahələrində alimlər yetişmiş, Ümumşərq, eləcə də ümumbəşəri mahiyyət daşıyan əsərləri ilə təkcə Azərbaycan elminə deyil, dünya elm xəzinəsinə öz töhfələrini vermişlər. Onların əsərləri yarandığı dövrün ictimai-siyasi mənzərəsini əks etdirməklə yanaşı, əsrlər boyu xalqın bədii-estetik təfəkkürünün formalaşmasında da mühüm rol oynamışdır. Tarixin keşməkeşlərindən keçərək bugünümüzədək çatmış bu əsərlər öz ədəbi-bədii əhəmiyyətini nəinki itirmiş, əksinə, daha böyük məna kəsb edərək xalqa mütərəqqi yeniliklərin tətbiqi yolunda, milli ziyalı təbəqəsinin – alimlərin, maarifçilərin, ədəbiyyatçıların və başqa sahələrin mütəxəssislərinin yetişməsinə zəmin yaratmışdır. Azərbaycanda ictimai-siyasi görüşlər məhz elmi-mədəni irs üzərində inkişaf edərək XIX əsrin əvvəllərində özünün yüksək mərhələsinə çatdı və A.A.Bakıxanov, M.F.Axundov, M.Ş.Vazeh kimi mütəfəkkirlərin yetişməsi ilə nəticələndi. Bu dövrdə imzalanmış 1813 və 1828-ci illər Gülüstan və Türkmənçay müqavilələri xalqımızı iki yerə bölsə də, Azərbaycanın Rusiya imperiyasına birləşdirilməsindən sonra milli mədəniyyətimizdə müəyyən qədər dirçəliş olmuşdur; Şərq və Qərb adət-ənənələri, mədəniyyətləri xalqımızın adət-ənənəsinə, mədəniyyətinə yaxınlaşmış, bu yaxınlaşma xüsusilə ziyalılarımızın daha geniş miqyasda tanınmasına şərait yaratmışdır. Mədəniyyətlərin bu sahədə qarşılıqlı ünsiyyətində Azərbaycan-rus, İslam-türk mədəniyyətləri öncül yer tutmuş, ən çox müdərrislik, maarifçilik, məktəbdarlıq, elm, hikmət, kəlam sahəsində özünü göstərməyə başlamışdır. XIX əsrdə Azərbaycanda maarifçilik ideyalarının vüsət alması sonrakı mərhələlərdə inkişaf edərək milli mətbuatın yaranmasına gətirib çıxardı, nəşriyyat, mətbuat, səhiyyə sahələrində xalq maarifpərvərləri və mədəniyyət xadimləri öz sözlərini deməyə çalışdılar. Bu dövrün görkəmli nümayəndələri H.Zərdabi, M.Kazımbəy, Ə.Topçubaşov və başqaları maarifçiliyin ikinci güclü dalğasının nümayəndələri oldu. XX əsrin əvvəllərində Azərbaycanda klassik ənənələr üzərində qurulmuş, Avropa üslublu dünyəvi təhsil təcrübəsiylə birləşərək yeni üsulların tətbiqi ilə məktəblər açılmağa başladı. 1906-cı ildə fəaliyyətə başlamış "Nəşri-maarif" xeyriyyə cəmiyyətinin kəndlərdə, rayonlarda savadsızlığın ləğvində xüsusi xidmətləri oldu. 1914-cü ildə Bakı quberniyasında 448 ibtidai, 1917-ci ildə isə 500-ə yaxın məktəb var idisə, bunlardan 16-sı Bakıda və Abşeronun kəndlərində fəaliyyət

göstərirdi. Abşeronun tərəqqipərvər ziyalıları ilə tanınmış kəndlərindən biri olan Buzovnanın mədəniyyət tarixi Ümumbakı mədəniyyətinin ayrılmaz hissəsini təşkil edir. İslam dininin Azərbaycan ərazisində təbliği, yayılması və inkişafı Buzovna kəndində mədəniyyətin tərəqqisi və təşəkkülünə zəmin yaratmış, zaman keçdikcə bu mədəniyyət ərəb-fars-türk mədəniyyətləri ilə sıx təmasda olmuşdur. XIX əsrin sonlarında Buzovnada Hacı Kərbəlayı Məşədi İmaməlinin, XIX əsrdə onun oğlanları Hacı Kərbəlayı Məşədi Əzizin və Hacı Kərbəlayı Məşədi Məcidin təmənnasız təşkil etdikləri mədrəsə və mollaxanalar, şair Məhəmmədismayıl Asinin mədrəsəsi, Molla Səkinəxanımın mollaxana-mədrəsəsi, Hacı Ağa bəy və Haşım bəy Saqib Heybətbəyov qardaşlarının mədrəsəsi və s. dini məktəblər, İmaməliyevlərin şəxsi evlərində dini-dünyəvi məktəblərin təsisi, ana dilində üsuli-cədid məktəblərində Məşədi Azərin, Məhəmmədismayıl Asinin, Hacıdadaş Qaibin və b. məktəbdarlıq etmələri, Şərq əlyazmalarından şəxsi kitabxanalarda istifadə edilməsi və s. dediklərimizə sübutdur. 1920-ci illərdə buzovnalı maarifpərvərlər Məşədi Azərin, Haşım bəy Saqibin, sonralar Ağasəlim Fədainin, Əliağa Şərqinin, Musa Qəmlinin, Xoşsima xanımın (Haşım bəy Saqibin xanımı, Ruhulla Axundovun bacısı) təşəbbüsü ilə məktəblər təşkil edilir, maarifçilik ideyaları yayılır, buzovnalı gənclər təhsilə cəlb edilirdi. Bu ziyalıların elmi tərcümələri, Məşədi Azərin "Tarixi-İslam", "Oğuznamə", "Çingiznamə", "Ərəbcə-farsca-türkcə izahlı lüğət"i, Məhəmmədismayıl Asinin “Kərbəla vaqeəsi”, sonrakı illərdə Əliağa Şərqinin, Ağasəlim Fədainin, İsmayıl Əlizadənin (İsmayıl İnanc), Musa Qəmlinin elmi-tarixi əsərləri Buzovnada elmə, mədəniyyətə və b. sahələrə yerli əhalinin münasibətini, dünyagörüşünü dəyişdi.

**Buzovna ədəbi mühiti.** Dünya xalqlarının əksəriyyətinin bədii yaradıcılığında, incəsənətində, ümumiyyətlə, mədəniyyətində bədii növlərdən biri kimi söz sənəti – ədəbiyyat mühüm yer tutur. Bu baxımdan Ümumazərbaycan ədəbiyyatı tarixində Bakı, o cümlədən Buzovna şairlərinin xidmətləri özünəməxsusluğu ilə səciyyələnir. Buzovna kəndində ədəbiyyat elminə, xüsusilə bədahətən deyilən sözə – bədihəyə, meyxanaya, bayatıya, qoşmaya böyük maraq olub. Bu söz sənəti əsrlərcə yaşayıb, günümüzədək gəlib çatıb. Əlbəttə, Buzovna kəndinin qədimlərdə məşhur olmuş bədihə ustalarının yaradıcılığına, mədəni səviyyəsinə xalq dastanlarının, ağız ədəbiyyatının müsbət təsiri olmaya bilməzdi, lakin qədim buzovnalı şairlərin əsərlərindən, deyimlərindən və s. ədəbi nümunələrindən əlimizdə olanı çox azdır. Məlumdur ki, XIX əsrdə Azərbaycanda fəaliyyətə başlamış "Gülüstan" (Quba), "Divani-hikmət" (Gəncə), "Əncüмənüş-şüəra" (Ordubad), "Fövzül-füsəha" (Lənkəran), "Beytüs-səfa" (Şamaxı), "Məclisi-üns", "Məclisi-fəramuşan" (hər ikisi Qarabağ) ədəbi məclisləri kimi, 80-ci illərdə tam fəaliyyətə başlayan "Məcməüş-şüəra"nın ("Şairlər məclisi") ilk rüşeymləri pərakəndə halda olsa da keçirilir, toy-şənlik məclislərində buzovnalı şairlərin qəzəlləri, hüzn və yas mərasimlərində növhə, mərsiyə, qəsidə və sinəzənləri ifa edilirdi. "Məcməüş-şüəra" ədəbi məclisi öz ətrafında bir çox Abşeron şairlərini toplamışdı ki, bunların arasında buzovnalı şairlər öz dünyagörüşü, iti hafizəsi, bədahətən söz qoşma qabiliyyətinə görə seçilirdilər. Buzovna ədəbi mühitində kamil sənətkar kimi tanınmış Buzovnalı Məşədi Azər İmaməliyev, Haşım bəy Saqib Heybətbəyov, Ağadadaş Müniri, Hacıdadaş Qaib, Əliağa Şərqi və başqalarının da əsərləri ötən əsrin 20-30-cu illərindən təkcə Buzovnada, Bakıda və ümumiyyətlə, Azərbaycanda deyil, eyni zamanda İran, Türkiyə, Dağıstan və b. ölkələrdə yayılmağa başlamış, müəlliflərinə şöhrət qazandırmışdı. Buzovnada yaranan ədəbiyyata klassik Şərq poeziyasının müsbət, güclü təsiri olmuşdur və bu, hər şeydən əvvəl, özünü yuxarıda adları çəkilən şairlərin,

sonrakı illərdə müəyyən qədər gənc nəslin nümayəndələri Ağasəlim Fədainin, Musa Qəmlinin, Soltan Nəcəfovun, İsmayıl İnancın, Əliabbas Zakinin, İsmayıl Səməd-zadənin (Amilin), Əlibala Zahirin, Əlizamanın və b. yaradıcılıqlarında göstərmişdir. Ədəbiyyata sonrakı illərdə orijinal nəfəsi, sözü olan bir neçə gənc buzovnalı şair də gəlmiş, demək olar ki, əsasən, vəfatlarından sonra tanınmışlar. Bunların sırasında Rahib və Ədalət Abdullayevləri, Kəbir Azərini, Kamal Davudu, Əzizağa Kərimovu (Əzizağa Ahari), Ağəmi Buzovnalını, Buzovnalı Elnarəni, Hökumə Dərbəndi, Ənvər Nəzərlini, Balahüseyn Xoşhalı və digərlərini göstərmək olar. Müasir dövrümüzdə ədəbi və elmi əsərləri, xüsusilə də poeziyası ilə tanınan Buzovnanın axundu Hacı Soltan Əlizadə, Arif Buzovnalı, Gülarə Munis, Tamilla Muradova və başqaları klassik şairlərin, o cümlədən buzovnalı şairlərin ənənələrini məharətlə yaşadırlar.

**Buzovna maarifçiləri.** Azərbaycanın tarixində XIX əsr mühüm əhəmiyyət kəsb edən hadisələrlə zəngin bir dövrdür. Məhz bu dövrdə Azərbaycanda geniş yayılmış maarifçilik ideyaları xalqımızın milli oyanışı və özünüdərkində mühüm rol oynamışdır. XIX əsrin 30-cu illərində Azərbaycanın müxtəlif şəhərlərində məktəblər təsis edilir, Şamaxıda qəza məktəbi (1830), Nuxada (1831), Bakıda (1832), Naxçıvanda (1837) və digər şəhərlərdə milli şüurun inkişafına, mədəni tərəqqiyə yol açan məktəblər fəaliyyətə başlayırdı. Belə şəraitdə Buzovnada da şəxsi evlərdə ana dilində tədris edilən məktəblərin yaradılmasına başlandı. XIX əsrin sonlarından buzovnalı məktəbdarlar "üsuli-cədid" ("yeni üsul") ideyasına tərəfdar olaraq, tədricən belə məktəblərin təşkilinə çalışırdılar. Bu işdə ötən əsrin əvvəllərində fəaliyyət göstərən "Məcməüş-şüəra" ədəbi məclisinin üzvləri olmuş şairlər fəal iştirak edir, bir maarifpərvər kimi Buzovnada gənc nəslin təhsilə cəlb edilməsində, maariflənməsində, həm dini, həm də dünyəvi biliklərə yiyələnməsində əvəzsiz xidmət göstərirdilər. 1920-ci illərdən sonra buzovnalı maarifpərvərlər Məşədi Azərin, Haşım bəy Saqibin, sonralar Ağasəlim Fədainin (Ağasəlim İmaməliyev), Əliağa Şərqinin, Musa Qəmlinin, Abbasqulu Abdullayevin, Xoşsima xanımın təşəbbüsü ilə məktəblər təşkil edilir, maarifçilik ideyaları yayılır, buzovnalı gənclər təhsilə cəlb edilirdi.

Ötən əsrin əvvəllərində "Məcməüş-şüəra" ədəbi məclisinin üzvü, sonralar rəhbəri kimi fəaliyyət göstərmiş şair Məşədi İmaməliyev (Azər) (1880-1951) yeni üsulla dərs keçməyin təşəbbüsçüsü kimi çoxlu adda dərsliklərin, lüğətlərin və digər tədris vəsaitlərinin əldə olunması, nağd pulla alınması yolunda çalışmış və məqsədinə nail olmuşdur. O, Bakının bir neçə kəndində, o cümlədən Buzovnada yeni tipli məktəblərin açılmasına müvəffəq olaraq həmin məktəblərdə Azərbaycan ədəbiyyatı və ictimaiyyət fənlərindən, klassik irs, şəriət tarixi və ilahiyyat elmlərindən dərs demiş, Bakı Hərbi məktəbində isə fars dilini tədris etmişdir. Ədəbiyyat, tarix, riyaziyyat, coğrafiya, xalq təbabəti, biologiya fənlərinin tədrisinə bu təhsil ocaqlarında xüsusi önəm verilirdi. Məşədi Azər dərin savada malik bir şəxs idi. O, istər məktəbdə, istərsə də ədəbi məclisdə gənclərə klassik ədəbiyyatdan gətirdiyi nümunələri dərindən təhlil edir, çətin anlaşılan ərəb, fars sözlərinin mənasını açır, tədris etdiyi və ya nümunə gətirdiyi əsərin məzmununu əsl müəllim kimi usanmadan başa salırdı. Böyük qəzəl ustadı, özünü Azərin yetirməsi hesab edən Əliağa Vahid Azərlə bağlı xatirələrindən birində onun gənc şairlərə dəstək olmasından, onlara bilmədiklərini öyrətməsindən bəhs edərək yazırdı: "1916-cı ilin yayında Buzovnaya Məşədi Azərin söhbətinə getmişdik. Bir yerdə çay içdik, söhbətə başladıq, şeirə keçdik. Azər mənə Füzulinin Həbibiyə yazdığı təxmisi oxudu. Həbibinin qəzəlini Füzulinin necə böyük bir məharətlə təxmis etməsi məni heyran

qoydu. Şeirdə olan rədif və qafiyələrin uyğunluğuna, hər iki şairin misralarında olan məzmunun bir-birinə necə əriyib qarışdığına valeh oldum. Məşədi Azər təxmisi oxuduqca bənd-bənd təhlil edir və çətin anlaşılan söz və tərkibləri aydınlaşdırırdı... Söylədiyi bəndi Məşədi Azər oxuyanda mən müşahidə etdim ki, kişinin qarabuğdayı üzü sözün təsirindən yavaş-yavaş ağarır, məzmunun qüvvəsindən dodaqları əsir... Lakin "təcrid" və "əhli-təcrid"in mənasını Azərdən öyrəndim. Azər savadlı adam idi, yaxşı lüğət bilirdi, müəllim olmuşdu" (Soltan Nəcəfovun xatirələrindən) [4, s.261]. Yeni üsulla təsis etdiyi ibtidai kənd məktəbində müəllimlik edən Məşədi Azərin yetirmələri içərisində ictimai xadim Ruhulla Axundov, şair Ağasəlim Fədai, ali məktəb müəllimi İsmayıl Əlizadə (İnanc), şair İsmayıl Səmədzadə (Amil) və başqaları respublikamızın görkəmli simalarından və mütəxəssislərindən sayılmışlar. Tədqiqatçı Ağarəfi Zeynalov qeyd edir ki, "şair Azərbaycan türkcəsindəki qəzəllərində "Azər", farsca qəzəllərində "Rüfət", "Molla Nəsrəddin" məcmuəsində dərc etdirdiyi satiralarında "Azər-Əyyar", mərsiyələrində isə "Xosrov" təxəllüsləri ilə çıxış edib ki, sonuncu təxəllüs özünün adıdır. İlk dəfə Azər Buzovnalını ədəbi aləmə tanıdan məşhur milyonçu Hacı Zeynalabdin Tağıyev olub. Məhz onun göstərişi və maddi köməyi ilə M.Ə.Rəsulzadə "Açıq söz" qəzetinin mətbəəsində şairin "Həmvətənlərimə" adlı 800 beytlik mənzuməsini nəşr etdirib" [4, s.268]. 1917-ci ildə M.Ə.Rəsulzadə və Orucov qardaşlarının naşiri və redaktoru olduqları "Açıq söz" qəzetinin mətbəəsində cəmi bir nüsxədə kitabça halında nəşr edilən həmin mənzumədə şair həmvətənlərinə xitab edərək öz millətini qəflət yuxusundan oyanmağa, birliyə, vəhdətə, vətənin gələcək səadət dolu günləri üçün çalışmağa səsləyir:

Fel edər təmini-istiqbalımız, nə boş məqal,
Boş məqalə qabil olmaz hərgiz əşxasi-fəal.

Birləşib iş görməli, cün hümməti-paki-rical,
Dağları istərsən nabüd etməyə, var ehtimal.

Həmvətənlər, yatmayın, yatmaq zərərdir, yatmayın,
Çıxdı gün, aləm işıqlandı, səhərdir, yatmayın! [4, s.177].

Azərin qələm dostu, məsləkdaşı olmuş şair və xeyriyyəçi, Buzovnanın məşhur Heybətbəyovlar nəslinin nümayəndəsi Haşım bəy Heybətbəyov da (Saqib) (1870-1931) kəndin, o cümlədən Bakının övladlarını ali məktəblərdə, gimnaziyada şəxsi vəsaiti hesabına oxutmuş, "Nəşri-maarif", "Nicat" cəmiyyətlərinə, həmçinin "Məcməüş-şüəra" ədəbi məclisinin fəaliyyəti üçün maddi yardımlar etmişdir. Şəxsi mülkündə savad kursları açmış, gənclərə həyat yoldaşı Xoşsima xanımla birlikdə ərəb, fars, rus dilləri və ədəbiyyatlarından dərs demişdir. Şairin maarifə önəm verməsi onun "Məarif söyləyir…" şeirində öz bariz əksini tapmışdır:

Məarif söyləyür, insan get ol, gəl,
Cəhalət söyləyür, nadan ol, gəl.

Məarif söyləyür, mövhumdan qaç,
Cəhalət yox deyir, mövhumə göz aç.

Məarif eyləyür insanı kamil,
Cəhalət məhv edib yüz min qəbayil...
Məarif kimi aləmdə fən olmaz,
Cəhalət kimi heç düşmən olmaz... [3, s. 644].

Haşım bəy bir jurnalist və publisist kimi də fəaliyyət göstərmiş, 1925-ci ildən vəfatınadək "Yeni yol" qəzetində və "Maarif və mədəniyyət" jurnalı ilə (indiki "Azərbaycan" jurnalı) əməkdaşlıq etmişdir. 1914-cü ildə "İqbal", 1924-cü ildə "Qızıl qələm" qəzetlərində şeirləri dərc olunmuşdur. Dövrünün br çox maarifçiləri kimi, o da yaxşını yamandan ayırmağa çağıran əsərlərilə gəncləri zamanın nəbzini tutmağa, hərəkətə gəlib elm öyrənməyə səsləyirdi. Bu fikir Haşım bəyin aşağıdakı misralarında öz əksini tapmışdır:

Elmün qapısı bağlı dögül, qəflətə uyma,
Təhsili-kamalat ilə tap dəhrdə şöhrət...

Elmün, hünərün bilməyəcəksən, evi bərbad,
Çıxsun bu gözün, elm olub kəşfü-rübüvvət...

Yıxdı yatmaq səni, gün görmədün heç, gün batdı,
Karvan düşdü yola, sən də yügür, vəqt keçir... [3, s. 638]

Maarifpərvərlər arasında dövrün görkəmli din xadimləri də var idi. Onlar mədrəsələrdə təkcə İslam dinini, şəriət qanunlarını təbliğ və tədris etmirdilər, həm də klassik şeirin mahir bilicisi kimi gənc nəslə zəngin biliklərini öyrədirdilər. Belə müdərrislərdən biri Səmədzadələr nəslinin nümayəndəsi, Haşım bəy Saqibin qohumu Hacıdadaş Səmədzadə (Qaib) olmuşdur. O, istedadlı bir şair kimi tanınmış, əsasən dini mövzuda şeirlər müəllifi olmuş, eyni zamanda kəndin gənclərinə "Qurani-Kərim" qiraətindən dərs demişdir.

Yaradıcılığında əsasən qəzəl, qəsidə, növhə kimi ədəbi nümunələrə yer verən müəllimlərdən biri də şair Məhəmməd İsmayıl Əbdüssəlam oğlu (Asi) (1945-1929) idi. Şairin 1913-cü ildə nəstəliq xətti ilə yazdığı 83 vərəqdən ibarət həmin nümunələr AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda "Növhəcat və qəsidəcat" adı altında B-1473/3098 şifri ilə mühafizə olunur [1, s.7]. Asi təmənnasız olaraq öz evində mədrəsə açıb, gənclərə ərəb, fars dillərindən, İslam, şəriət, fiqh tarixləri və ədəbiyyatından dərs demiş, eyni zamanda kənddəki köhnə üsullu məktəbdə müdərrislik etmişdir. O, ədəbiyyatımızda yaradıcılığı hələ tədqiq olunmamış istedadlı şairlər Musa Qəmli (şairin doğma oğludur) və Əliağa Şərqinin (şairin bacısı oğludur) ustadı olmuşdur [1, s.7]. Gənclərin təhsil almasında, məktəblərin açılması və fəaliyyət göstərməsində, milli mütəxəssis, təsərrüfat kadrlarının hazırlanmasında, artellərin yaradılmasında, kənddə mədəniyyət evinin təsisində əvəzsiz xidmətləri olmuş maarifpərvər şairlərdən biri də Ağasəlim İmaməliyev (Fədai) (1903-1951) idi. O, kənddə savadsızlığın ləğv edilməsi uğrunda uzun illər mübarizə aparmış, 125 saylı məktəbin tikilməsində, oğlanlar üçün məktəbin açılmasında, Bakının Əzizbəyov və Sabunçu rayonlarında yeni tipli məktəblərin təsis edilməsində böyük xidmət göstərmişdir. Qızların təhsilə cəlb edilməsində onun xidmətləri danılmazdır. Böyük nüfuz sahibi kimi o, hətta qızlarını təndirdə gizlədən mühafizəkar valideynlərin inadını qırmış, qız övladlarının təhsil almasına nail olmuşdur. Yeniliyin

tərəfdarı olaraq o, ilk dəfə kənddə öz həyat yoldaşını belə çadranı atmağa təhrik etmişdir.

Buzovna kəndi başqa kəndlərə nisbətən Azərbaycanda gözdən əlillər üçün məktəb açan ilk kəndlərdən biridir. İkinci Dünya müharibəsi illərində təsis edilmiş həmin məktəbdə onlarca azərbaycanlı təhsil almış, respublikanın ali məktəblərində oxumuşlar. Həmin məktəb 1940-cı ildən 1960-cı ilin əvvəlinədək fəaliyyət göstərmişdir. “Qurani-Kərim”in, Şərq ədəbiyyatının mahir bilicisi, filoloq Ramiz Faseh həmin məktəbin yüksək elmi, ziyalılığı ilə seçilən məzunlarından biri və ən görkəmlisidir.

İkinci Dünya müharibəsindən sonrakı quruculuq illərində maarifçilik ənənələri üzərində qurulmuş və inkişaf etməkdə olan Buzovna məktəblərində yeni nəslin nümayəndələri – Əliabbas Zaki, Heydər Eyvazov, Əliağa Zahir və başqaları yeni ədəbiyyatın vəzifələrini dərk edərək ədəbi dilin saflığının qorunub saxlanması, bu dilin incəliklərinə qədər gənc nəslə tədris edilməsi işində səylə çalışmışılar. Onlar müəllimliklə yanaşı, şeir yaradıcılığına da meyil göstərmiş, ədəbiyyatın mövzu, ideya və məzmun baxımından yeniləşməsi uğrunda səmərəli fəaliyyət göstərmişlər. Şair Əlibala Zahir (1927-1982) ötən əsrin 60-cı illərindən milli dövri mətbuatla, xüsusilə “Azərbaycan müəllimi”, “Ədəbiyyat və incəsənət” qəzetləri, “Azərbaycan məktəbi” jurnalı ilə əlaqə saxlamış, elmi-publisistik yazılarını həmin orqanlarda dərc etdirmişdir. Gənclik illərindən Zahir təxəllüsü ilə şeirlər, qəzəllər, rübai, təxmislər yazmış, eyni zamanda kənd orta məktəbində ədəbiyyat fənnini tədris etmişdir. Çoxlu sayda pedaqoji, jurnalist, elmi işçi, tərcüməçi kadrlar hazırlamış, klassik ədəbiyyatın mahir bilicilərindən olan Heydər Eyvazov (1922-1997) tədris zamanı Azərbaycan və Şərq şairlərinin əsərlərini böyük məhəbbətlə təhlil edir, gənc nəslə Şərq ədəbiyyatına sevgi aşılayırdı. Hal-hazırda respublikada adları hörmətlə çəkilən, yüksək tribunalardan səsi gələn bir çox ziyalılar məhz onun yetişdirmələridir. Hansı elm sahəsində nailiyyətlər əldə etmələrindən asılı olmayaraq, onların hamısı Şərq ədəbiyyatına, eləcə də bu ədəbiyyatın ayrılmaz qolu olan Azərbaycan ədəbiyyatına onun sayəsində dərindən bələd olmuşlar. O, milli kadrlar hazırlığı və fəaliyyətinə görə “Qabaqcıl maarif xadimi” döş nişanı, gənc nəslin tərbiyəsi sahəsində xidmətlərinə görə iki dəfə “Əmək igidliyinə görə” medalı, Azərbaycan Respublikasının Əməkdar müəllimi, “Əmək veteranı”, “Maarif əlaçısı” nişanları ilə təltif olunmuşdur.

**Nəticə.** Böyük çətinliklər bahasına başa gəlsə də, bu şairlərin fəaliyyətində yeni dünya, ictimai-siyasi hadisələr, maarifə münasibət, mənəvi azadlıq, humanizm ideyaları mühüm yer tuturdu. Adları çəkilən ziyalılar elmə, təhsilə önəm verir, gənclərin yeni cəmiyyətdə azadfikirli, mütərəqqi ideyalı insan kimi yetişməsinə çalışırdılar. Klassik ənənələr əsasında yeni tərzli həyatı alqışlayan əsərləri ilə bu maarifçilər gənc nəslin dünyagörüşünün formalaşmasını, onların hər vəchlə təhsilə cəlb edilməsini təmin edirdilər. Yeni tipli dünyəvi məktəblərin yaranması millətin mənəvi və milli tərəqqisinin inkişafına təkan verdi. Kənd məktəblərində fənlərin milli dildə tədris edilməsi gənclərin elm öyrənməyə həvəsini artıraraq gələcəkdə müxtəlif ixtisaslara yiyələnmələrini müəyyənləşdirmələrinə zəmin yaratmış oldu. Xalqın milli mənəvi təfəkkür tarixində Bakı ədəbi mühiti mühüm rol oynamış, bu mühiti yaradan ziyalıların fəaliyyəti, millətə xidmətləri sayəsində yeni nəslin özünüdərki, milli şüuru formalaşmışdır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Buzovnalı Məhəmməd İsmayıl Asi. Divan. Bakı: “Boz Oğuz”, 1997
2. Haşım bəy Saqib. Kim-kimədir. Bakı: “Boz Oğuz”, 1996
3. Haşım bəy Saqib. Divan. Bakı: “Nurlar”, 2009
4. Məşədi Azər. Seçilmiş əsərləri. Bakı: “Boz Oğuz-Nicat”, 1996

***Tomiris Babanli***

## Literary environment of Buzovna in the early XX century and educational activity of Buzovna poets

***S u m m a r y***

In the article "The literary environment of Buzovna at the beginning of the XX century and the educational activity of Buzovna poets," the author provides information about the educational activities of Buzovna's poets, who occupy a special place in the history of Azerbaijani literary and artistic thought. As known, the XIX century is characterized by a special period in the history of social thinking in Azerbaijan. During this period, the spread of ideas of enlightenment in Azerbaijan led to the formation of a national press at later stages, the development of public educators and cultural figures in the field of publishing, printing and health care. The widespread educational ideas in Azerbaijan played an important role in the national awakening and self-awareness of our nation. In the 30$^{s}$ of the XIX century, on the initiative of educators, schools were opened in various cities of Azerbaijan, educational institutions began to function, which opened the way for the development of national selfconsiousness and cultural progress. In 1917, there were about 500 schools in Azerbaijan, 16 of which operated in Baku and the villages of Absheron. schools of a new type were organized in Buzovna, one of the villages of Absheron, known for its progressive intelligentsia. The poets who were part of the literary assembly of poets – "Majmaush-shuara" took an active part in this work; as teachers, they rendered invaluable service in attracting the younger generation to education, enlightenment and acquisition of knowledge in Buzovna. After the 20$^{s}$ of the last century, poets-educators of Buzovna – Mashadi Azer Imamaliyev, Hashim bay Sagib Heybatbayev, Agasalim Imamaliyev (Fadai), Mahammadismail Asi, Aliagha Shargi, Musa Gamli, Abbasgulu Abdullayev, Khoshsima Khanum Akhundova, organized schools, educational ideas were spread, rural youth was involved in education on their initiative. The approach to the new system, social and political events, enlightenment, spiritual freedom and the ideas of humanism occupied an important place in the activities of these poets. The aforementioned intellectuals attached great importance to science and education, tried to educate young people as free-thinking, progressive people in the new society. Welcoming the new method of education, these poets-educators ensured the formation of the outlook of the younger generation, their full participation in education due to great difficulties. The creation of a new type of secular schools gave impetus to the development of the spiritual and national progress of the nation.

***Томирис Бабанлы***

**Литературная среда Бузовны в начале XX века и просветительская деятельность бузовнинских поэтов**

***Р е з ю м е***

В статье «Литературная среда Бузовны в начале XX века и просветительская деятельность поэтов Бузовны» автор дает информацию о просветительской деятельности поэтов Бузовны, занимающих особое место в истории азербайджанской литературной и художественной мысли. Как известно, XIX век характеризуется особым периодом в истории социального мышления Азербайджана. В этот период распространение идей просвещения в Азербайджане привело к образованию национальной прессы на более поздних этапах, развитию общественных педагогов и деятелей культуры в области издательского дела, печати, здравоохранения. Широко распространенные в Азербайджане просветительские идеи сыграли важную роль в национальном пробуждении и самосознании нашего народа. В 30-х годах XIX века по инициативе просветителей были открыты школы в различных городах Азербайджана, начали функционировать учебные заведения, что открыло путь для развития национального самосознания и культурного прогресса. В 1917 году в Азербайджане было около 500 школ, 16 из которых действовали в Баку и селах Абшерона. В Бузовне, являющимся одним из сел Абшерона, известным своей прогрессивной интеллигенцией, были организованы школы нового типа. Поэты, входившие в литературное собрание «Маджмауш-шуара», приняли активное участие в этой работе, в качестве педагога они оказали неоценимую услугу в привлечении молодого поколения к образованию, просвещению и приобретению знаний в Бузовнах. После 20-х годов прошлого века поэты-просветители Бузовны – Мешади Азер Имамалиев, Гашим бек Сагиб Гейбатбеков, Агасалим Имамалиев (Фадаи), Мухаммадисмаил Аси, Алиага Шарги, Муса Гамли, Аббасгулу Абдуллаев, Хошсима ханум Ахундова (супруга Гашим бека Сагиба) организовывали школы, по их инициативе распространялись просветительские идеи, сельская молодежь была привлечена к учёбе. Подход к новому строю, общественно-политическим событиям, просвещению, духовная свобода и идеи гуманизма занимали важное место в деятельности этих поэтов. Упомянутые интеллектуалы придавали большое значение науке и образованию, старались воспитывать молодежь в качестве свободомыслящих, прогрессивных людей в новом обществе. Приветствуя новый метод воспитания, эти поэты-просветители за счёт больших трудностей обеспечивали формирование мировоззрения подрастающего поколения, их полноценное участие в образовании. Создание нового типа светских школ послужило импульсом для развития духовного и национального прогресса нации.